## Dədə Katib

### Dedilər

Ariflərdən sordum dünya əhvalın,
Azad quşa bir qəfəsdi, dedilər.
Ömrün etibarın sual eylədim,
Getdi, gəlməz, bir nəfəsdi, dedilər.

Dedim, bir sərmayə, bir də səadət,
Dedilər, xoş əxlaq, bir də qənaət.
Dedim, şöhrət üçün olsa ibadət,
Abid deyil, pulhəvəsdi, dedilər.

Dedim: dünya malı?  Dedilər: - ibrət.
Dedim: bəs cavanlıq? Dedilər: - fürsət.
Dedim ki, qocalıq? Dedilər: - həsrət.
Ömrün payız yeli əsdi, dedilər.

*Dədə Katib*, qəmli halın qəm əkə,
Qəm xırmanın qəm anbara, qəm tökə.
Ömrün süfrəsindən bir neçə tikə,
Yedim, doymamışdım, bəsdi, dedilər.

### Vəssalam!

Dəli könül, məndən sənə vəsiyyət,
Ədəbsizdən insan olmaz, vəssalam!
Qırtlaqsız boğazda, bir hərzə dildə,
Həyasızda iman olmaz, vəssalam!

Çalışıb tər tökən, ər olmaz möhtac,
Haqqına qane ol, nəfsə vermə bac.
Bir sınıq könül yap, eylə sən merac,
Könül qıran xəndan olmaz, vəssalam!

Neçə sözüm vardır, deyim qanasan,
Qorxaq ilə yoldaş olma, yanasan,
Şoran yerdə heç vaxt əkmə danə sən,
Şor torpaqda bostan olmaz, vəssalam!

*Dədə Katib*, heç vaxt haqqı buraxma,
Doğru get izini, yolundan çıxma,
Batil piruz (qalib) olmaz, ürəyin sıxma,
Haqq aydındır, pünhan olmaz, vəssalam!